






**Tarix millətin yaddaşıdır. Bu yaddaşın qorunub saxlanılması, gələcək nəsillərə ötürülməsi üçün arxivlər mühüm rol oynayır. Hər bir dövlətin milli yaddaşının, tarixi keçmişinin qorunduğu bu müəssisələrdə saxlanılan sənədlər dövlətçiliyin təməl sütunlarını təşkil edir və millətin tarixi, siyasi, iqtisadi və mədəni inkişafını əks etdirən əsas mənbə sayılır. Keçmişdə yalnız idarəetmə və hüquqi məqsədlər üçün istifadə olunan arxivlər bu gün cəmiyyətin bütün sahələrinə təsir göstərən vacib institutlardan birinə çevrilmişdir.**

# Zamanın səssiz şahidi

## yüzillik arxiv salnaməsi



XX əsrin əvvəllərində dövlətçilik ənənələrinin formalaşdığı dövrdə sənədlərin toplanması və qorunması məsələsi ön plana çəkilmişdi. Arxiv işini təşkil etmək, qiymətli sənədləri bir yerə toplamaq məqsədilə 1920-ci ilin dekabrında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri Nəriman Nərimanov "Vahid Dövlət Arxiv Fondunun təşkil edilməsi və Mərkəzi Dövlət Arxivinin yaradılması haqqında" dekret imzalamışdır. Dekretdə deyilirdi: "Keçmişdəki və indi fəaliyyət göstərən hökumət idarələrinin və ictimai təşkilatların bütün arxivləri vahid Dövlət Arxiv Fondunu təşkil edir. Dövlət Arxiv Fondunun idarə edilməsi Xalq Maarif Komissarlığı yanında Azərbaycan Mərkəzi Dövlət Arxivinə həvalə edilir".

Naxçıvan Muxtar Respublikasında arxivin təşkili Azərbaycanda arxiv işinin ümumi inkişaf tarixinin ayrılmaz tərkib hissəsidir.

1925-ci il 13 dekabr Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin tarixli qərarı ilə Naxçıvanda Mərkəzi Dövlət Arxivi təşkil edilmişdir. Bu hadisə muxtar respublikada arxiv işinin təşkilati əsaslarını qoymuş, sənəd dövriyyəsinin sistemli şəkildə aparılmasına şərait yaratmışdır.



1930-cu ildə Naxçıvan MSSR Xalq Maarif Komissarlığının nəzdində Mərkəzi Dövlət Arxivi yaradılmış, müvafiq əmrilə Mirzə Əhməd Hüseynov idarəyə direktor təyin edilmişdi.

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin Naxçıvan Xalq Daxili İşlər Komissarlığının tərkibində olduğu dövr, xüsusilə 1941-1944-cü illər Ulu Öndər Heydər Əliyevin fəaliyyəti ilə bağlıdır. Naxçıvan Pedaqoji Texnikumunu bitirən Heydər Əliyev 1941-ci ildə arxivə elmi işçi qəbul edilmiş, sonralar məxfi şöbənin müdiri vəzifəsində çalışmışdır. Bu dövrdə Naxçıvan Mərkəzi Dövlət Arxivinə Paşa Əhmədov, ondan sonra isə vaxtilə Əbrəqunus Rayon Dövlət Arxivində direktor vəzifəsində çalışmış Arif Hüseynov rəhbərlik etmişdi.

60-cı illərdə Mərkəzi Dövlət Arxivi Naxçıvan MSSR Nazirlər Soveti yanında Arxiv İdarəsi adlandırıldı. Bu dövrdə sənədlərin qeydiyyatı, yeni fondların mühafizəsi üçün əsas hüquqi və inzibati baza yaradıldı. Yerlərdə arxiv işinə cavabdeh əməkdaşlar təyin olundu. Bu mərhələdə Naxçıvanda mövcud olan dövlət orqanlarının yazışmaları, qərar və sərəncamları arxivə təhvil verildi.

Naxçıvanda arxiv işinin inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu misilsizdir. O, hələ Sovet hakimiyyəti dövründən başlayaraq arxiv işinə xüsusi önəm vermiş, arxivlərin hüquqi statusu möhkəmləndirilmiş, müasir tələblərə uyğun qurulması üçün zəruri tədbirlər görülmüş, bu sahədə çalışan mütəxəssislərin peşəkarlığının artırılması üçün mühüm addımlar atılmışdır.

Təsadüfi deyildir ki, həmin dövrdə Naxçıvanda arxiv işi daha da inkişaf etdirilmiş, yeni arxiv binaları tikilmiş, sənədlərin saxlanma şəraiti yaxşılaşdırılmışdı. Arxiv işçilərinin ixtisas səviyyəsi artırılmış, həmçinin şəxsi fondlar da toplanmağa başlanmışdı. Arxiv işi artıq təkcə sənədlərin qorunması ilə məhdudlaşmamış, onların elmi-tarixi əhəmiyyəti də önə çəkilmişdi.

Heydər Əliyev arxivləri xalqın tarixi yaddaşı adlandıraraq bu sahənin inkişafını dövlət siyasətinin vacib istiqamətlərindən biri kimi dəyərləndirmiş, arxiv işini qiymətləndirərək demişdir: "Arxiv işinə gərək çox ciddi fikir verək. Bir tərəfdən ona görə ki, xalqımızın tarixini əks etdirən yeganə mənbədir. İkincisi də ona görə ki, tariximizi təhrif edənlərin qarşısını almaq üçün çox mühüm amildir".

Azərbaycanın müstəqilliyinin bərpası ilə dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, arxiv işində də köklü islahatlara start verilmişdir. 1999-cu il 22 iyunda "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu, arxiv işinin hüquqi bazasının formalaşdırılması baxımından mühüm hadisə olmuşdur.

Ulu Öndərin 2 dekabr 2002-ci il tarixli "Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında" fərmanı respublikada fəaliyyət göstərən arxivlərin inkişafına təkan vermişdir. Fərmanın qərar hissəsində Arxiv İdarəsinin statusunun qaldırılması, arxiv xidməti təşkilatlarının maddi-texniki təchizatının təkmilləşdirilməsi, arxiv binalarının təmiri və bərpa işlərinin aparılması, arxiv işçilərinin sosial vəziyyətlərinin yaxşılaşdırılması qeyd edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 6 dekabr 2002-ci il tarixli fərmanına əsasən Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsi Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Arxiv İdarəsinin bazasında yenidən yaradılmışdır. Ümumiyyətlə, Heydər Əliyevin siyasi iradəsi nəticəsində arxiv sahəsində müstəqil və sistemli fəaliyyət üçün formalaşmış əlverişli mühit Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin inkişafına müsbət təsir göstərmişdir. 2012-ci ildə Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi əsaslı təmir olunmuş, dünya standartlarına uyğun müasir avadanlıqlarla təmin olunmuşdur. 2016-cı ildə Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin strukturunda dəyişikliklər edilmiş, müvafiq qərarla Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin nəzdində Naxçıvan Şəhər Arxivi yaradılmışdı. Hazırda Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin tabeliyində Muxtar Respublika Dövlət Arxivi, 7 rayon və Şəhər Arxivi fəaliyyət göstərir.

Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev də arxiv işini daim diqqət mərkəzində saxlamış, bu istiqamətdə ardıcıl siyasət yürütmüşdür. Onun rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində arxiv sahəsi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu istiqamətdə Prezidentin 12 fevral 2020-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı"nın da rolu danılmazdır. Proqram çərçivəsində arxiv sənədlərinin rəqəmsal bazasının yaradılması, elektron kataloqların formalaşdırılması və arxiv xidmətlərinin daha əlçatan edilməsi nəzərdə tutulur. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi də məhz bu proqram çərçivəsində öz fəaliyyətini müasirləşdirmiş, sənədlərin elektronlaşdırılması sahəsində mühüm addımlar atılmışdır. Eyni zamanda, kadr potensialının gücləndirilməsi, texniki təchizatın yenilənməsi və arxiv fondlarının qorunması üçün optimal şəraitin yaradılması istiqamətində uğurlar əldə edilmişdir. İctimaiyyətlə əlaqələr genişləndirilmiş, maarifləndirici tədbirlərin, sərgilərin təşkili tarixi sənədlərin təbliğində mühüm rol oynamışdır.



Bu gün Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində 4079 kino-sənəd, 74861 foto-sənəd, 794 fond üzrə 500 mindən çox sənəd mövcuddur. Hər il komplektləşdirmə mənbəyi olan idarə, müəssisə və təşkilatlardan Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinə minlərlə sənəd qəbul edilir. Həmçinin Naxçıvan tarixi ilə bağlı sənədlər Azərbaycanın digər arxivlərindən və xarici ölkə arxivlərindən gətirilərək burada fondlara əlavə edilir.

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin əməkdaşları həm də ASAN Xidmət Mərkəzində fəaliyyət göstərərək vətəndaşlara xidmət göstərirlər. Bu xidmətlərə əməkhaqqı və əmək stajı, doğum, ölüm və nikah kimi vətəndaşlıq vəziyyəti aktları üzrə arxiv arayışlarının verilməsi, şəxsi sənədlər və təhsil sənədlərinin surətləri, daşınmaz əmlakla bağlı hüquqi qərarlar, məhkəmə aktları, genealoji sorğular daxildir. Bütün bunlar arxiv xidmətlərinin əlçatanlığını artırmaqla yanaşı, həm də arxiv işinin daha çevik, şəffaf, müasir tələblərə uyğun təşkil edilməsinə və vətəndaş məmnunluğunun yüksəldilməsinə töhfə verir.

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi həm peşəkar kollektivin fədakar fəaliyyəti, həm də dövlətin ardıcıl qayğısı nəticəsində inkişaf edir. Bu qayğının nəticəsidir ki, 2010-cu ildə arxivin iki nəfər əməkdaşı "Əməkdar mədəniyyət işçisi" fəxri adı almış, 2015-ci ildə bir neçə əməkdaş "Rəşadətli əməyə görə" nişanı, 2025-ci ildə isə bir nəfər əməkdaş dövlət qulluğunda səmərəli fəaliyyətinə görə "Rəşadətli əməyə görə" nişanı ilə təltif edilmişdir.

Müasir dövrdə arxiv işi yalnız sənədlərin qorunması ilə məhdudlaşmır, həm də onların təhlili, istifadəyə verilməsi və elmi tədqiqatların əsas mənbəyi kimi əhəmiyyətini artırır. Arxiv işi ölkəmizdə dövlət idarəçiliyinin təməl daşı kimi mühüm əhəmiyyət kəsb edir və bu sahədə aparılan tədbirlər, gələcək nəsillər üçün milli irsin qorunub saxlanmasında həlledici rol oynayır. Bu səbəbdən arxivlərin inkişafı, peşəkar kadrların hazırlanması və innovativ texnologiyaların tətbiqi xüsusi önəm daşıyır. Nəticə etibarilə, arxiv işi dövlət idarəçiliyinin və milli mədəniyyətin inkişafının vacib elementlərindən biridir. Buna görə də bir əsrlik tarixə malik olan Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi milli yaddaşımızın qoruyucusu kimi mühüm missiya daşıyır. Bu dövr ərzində formalaşan zəngin sənəd fondu yalnız bölgənin deyil, bütövlükdə Azərbaycanın ictimai-siyasi, mədəni və sosial tarixinin öyrənilməsində əvəzsiz mənbəyə çevrilmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi ötən 100 ildə zəngin tarixi irs yaratmış, dövlətçilik tariximizin qorunmasında müstəsna rol oynamışdır.

**Mehman MƏMMƏDOV,**
**Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin rəisi.**